

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 201 (23.363)

*25 oktyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel ilə görüşüb.

* * *

Dövlətimizin başçısı həmin gün akademik Akif Əlizadəni qəbul edib və ona 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.

* * *

Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub.

* * *

Prezident İlham Əliyev həmin gün Vyetnam Sosialist Respublikasının vitse-prezidenti xanım Danq Thi Nqok Thinhin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## *"Səyyar dövlət qulluğu xidməti könüllüyü"* layihəsinin ikinci mərhələsinə start verilib



"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu Şərur Rayon Mədəniyyət Şöbəsinin inzibati binasında olublar. Onlar dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması, eləcə də AMEA Naxçıvan Bölməsində vakant vəzifələrin və müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqələrdə vətəndaşların iştirakını təmin etmək məqsədilə qeydiyyatdan keçməkdə çətinlik çəkənlərə operativ köməklik göstəriblər.

Könüllülər təlimlər zamanı əldə etdikləri bilikləri xidmətdə tətbiq edərək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşının müşayiəti ilə vətəndaşlardan müsabiqədə iştirak etmək üçün lazımi sənədləri qəbul edib, həmin sənədlərin düzgünlüyünü yoxlayaraq onların surətlərini şəxsi kabinetə yükləyib və qeydiyyatdan keçməklə müsabiqələrdə iştiraklarını təsdiq ediblər. Gün ərzində 7 nəfərə səyyar elektron xidmət göstərilib.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın həyata keçirdiyi xidmət müsabiqələrin sənəd qəbulunda iştirak edən vətəndaşlar tərəfindən yüksək qiymətləndirilib.

Onu da qeyd edək ki, layihənin birinci mərhələsində sənəd qəbulu zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılması, vaxt və maliyyə itkisinin qarşısının alınması məqsədilə rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın inzibati binasına gələ bilməyən 72 vətəndaşa da səyyar elektron xidmət göstərilib.

Bu istiqamətdə keçirilən tədbirlərin davamı olaraq səyyar dövlət qulluğu xidmətinin növbəti ünvanı bu gün Şahbuz rayonu olacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Bina təhvilə hazırdır

2008-ci ildən fəaliyyət göstərən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti muxtar respublikamızda həyata keçirilən real sektorun dəstəklənməsində mühüm rol oynayır. Fəaliyyəti dövründə bank əhaliyə nümunəvi xidmət göstərməklə böyük müştəri məmnuniyyəti qazanıb. Təsadüfi deyil ki, əhalinin əlverişli bank xidmətlərindən yararlanması üçün ötən dövrdə bankın paytaxt Bakı və Naxçıvan şəhərlərində, o cümlədən Şərur, Culfa və Ordubad rayonlarında filialları istifadəyə verilib. Bu ilin aprel ayından isə Kəngərli rayonunun Qıvraq qəsəbəsində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin yeni filialı üçün binanın tikintisinə başlanılıb.



Yeni inzibati bina iki mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində əməliyyat, xəzinə, server, gözətçi otaqları, müştəri zalı, qazanxana və foye yerləşəcək. İkinci mərtəbədə isə iş otaqları, foye və iclas zalı nəzərdə tutulub. Artıq obyektdə bütün işlər başa çatdırılıb. Binanın ətrafında abadlıq-təmir işləri aparılıb, yeni işıqlandırma sistemi və su xətti çəkilib, yaşıllıq zolağı salınıb. Qeyd edək ki, yeni filial əhalinin, o cümlədən sahibkarların, torpaq mülkiyyətçilərinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə şərait yaradacaq.

**Babək İSMAYILOV**

## Muxtar respublikada ailə təsərrüfatları yeni mərhələdə inkişaf etdirilir





Bu gün muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhalinin məşğulluğunun artırılması, ailə biznesinin qurulması diqqətdə saxlanılır. Diyarımızda ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi, onların ixtisaslaşması və belə təsərrüfatlara dövlət dəstəyinin artırılması məqsədilə 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması aqrar sahəyə göstərilən hərtərəfli və davamlı dövlət qayğısının bariz nümunəsidir.

Bu məqamda qeyd etmək yerinə düşər ki, muxtar respublikada əhalinin zəruri ərzaq məhsulları ilə təmin olunması məqsədilə bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunur. Hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada aqrar sahənin, bu çərçivədə ailə təsərrüfatlarının inkişafına da öz töhfəsini verməkdədir.

"Ailə təsərrüfatları ili"ndə görülən çoxşaxəli tədbirlər muxtar respublikada belə təsərrüfatların inkişafına böyük stimul olub, bölgələrdə yeni təsərrüfatların formalaşmasına geniş imkanlar açıb. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatının inkişafı ilə bağlı Tədbirlər Planı" mühüm əhəmiyyətə malikdir. Plana uyğun olaraq ailə təsərrüfatlarının biznes planı tərtib edilib, sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, subsidiyaların ödənilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması və digər tədbirlər muxtar respublikada istehlak bazarının sabitləşməsinə şərait yaradıb.

Ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların brendləşdirilməsi, qablaşdırma və dizaynların tərtib olunması, "İstehsaldan markete" prinsipinə əsaslanaraq ailə təsərrüfatlarının taralarla təchiz olunması, istehsal olunmuş məhsulun həm bazara itkisiz çatdırılmasına, həm də böyük alıcı rəğbətinin qazanılmasına imkan verib. Bütün bunların nəticəsidir ki, artıq ailə təsərrüfatları kiçik sahibkarlıq subyektləri kimi formalaşıb. İstehsal olunan məhsulların "Ailə təsərrüfatı" əmtəə nişanı ilə satışa çıxarılmasından sonra ona alıcı marağının artması isə keyfiyyət amilinə xüsusi diqqət yetirildiyini göstərir.

Ailə təsərrüfatlarının iş təcrübələrinin muxtar respublikada geniş tətbiq və təbliğ edilməsi məqsədilə tədbirlərin keçirilməsi belə təsərrüfatların ərzaq təhlükəsizliyinin təmin olunmasında rolunun, həmçinin iş təcrübələrinin artırılmasına, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin formalaşmasına səbəb olub. Bu məqsədlə may ayında Ordubad rayonunda fəaliyyət göstərən ailə təsərrüfatlarının iş təcrübələrinin muxtar respublikada geniş tətbiq edilməsi ilə əlaqədar rayon mərkəzində tədbir keçirilib. Tədbirdə muxtar respublikanın rayonlarının 167 qabaqcıl ailə təsərrüfatı başçısı iştirak edib. Ordubadda istehsal olunan məhsulların tədbir iştirakçılarına təqdim edilməsi, ailə təsərrüfatları başçılarının bir-birləri ilə təcrübə mübadiləsi aparmaları bu gün öz bəhrələrini verməkdədir.

Sevindirici haldır ki, son illərdə muxtar respublikada müxtəlif səpkili festivalların təşkili ənənə halını alıb. "Ailə təsərrüfatı məhsulları" festivalları ilə yanaşı, "Göycə", "Kətə", "Arıçılıq məhsulları – bal" festivalları da istehsalçılar və istehlakçılar tərəfindən yüksək dəyərləndirilib, müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalına marağı daha da artırıb. Məhsul festivallarının bölgələrimizdə də keçirilməsi həmin rayonlarda belə təsərrüfatların sayının və istehsalının hər il artdığını göstərir. Məsələn, ötən ay Şahbuz rayonunda ailə təsərrüfatı məhsullarının sərgi-satışı təşkil olunub. Burada rayonun kəndlərindən 80-ə yaxın ailə təsərrüfatı tərəfindən 11 növdə, 79 adda 2300 qablaşdırılmış məhsulun çıxarılması bölgədə ailə təsərrüfatının inkişaf etdiyini göstərir.

Oktyabrın 18-də Sədərək rayonunda da "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Festivalda rayonun kəndlərindən 20-dən artıq ailə təsərrüfatı tərəfindən 108 adda, 5014-dən çox qablaşdırılmış kənd təsərrüfatı məhsulu iştirakçılara təqdim edilib. Bütün bunlar onu göstərir ki, sərhəd bölgəmizdə də bu istiqamətdə yeni-yeni uğurlar əldə edilir.

Bu gün muxtar respublika əhalisinin yerli kənd təsərrüfatı məhsulları ilə təminatı yüksək səviyyədə həyata keçirilir. Əldə olunan uğurlu nəticələrdə ailə təsərrüfatlarının böyük rolu vardır. Artıq muxtar respublikanın ailə təsərrüfatları növbəti festivala hazırlaşır. Qarşıdan qış mövsümü gəldiyi üçün hamı bu fəslin azuqəsini festivaldan əldə edə biləcək. Bu da tədbiri əsl ümumxalq bayramına çevirəcək.

**Zəkəriyyə GÖZƏLOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri***

*Bu gün iqtisadiyyatdan danışarkən, ilk olaraq nəzərimizdə sahibkarlıq subyektləri və onların fəaliyyəti canlanır. Həqiqətən, sahibkarlığın inkişafı istənilən ölkənin iqtisadi cəhətdən güclənməsində alternativi olmayan bir yoldur. Təcrübə də təsdiqləyir ki, hazırda dünyada fəaliyyət göstərən çoxillik şirkətlərin hər biri güclü sahibkar və ətrafında formalaşdırdığı peşəkar komandanın sayəsində illərdir, iqtisadiyyatda öz sözünü deyir. Məhz bu cür şirkətlərin inkişafına təkan verən, onları illərdir, ayaqda saxlayan, eyni zamanda istehlakçılarına qüsursuz xidmət göstərməyə sövq edən həmin şirkətlərdə yaradılmış dəyərlərdir. Söhbət yerli şirkətlərimizdə də formalaşması vacib olan korporativ mədəniyyətdən gedir. Bəs korporativ mədəniyyət nədir? Nəyə görə sahibkarlarımız bu amilə diqqət yetirməlidirlər?*

*Mətbu startap layihələri*

# Korporativ mədəniyyət biznesdə inkişafın təməl prinsiplərindəndir





"Korporasiya" termini latın dilində olan "corporatio" – birlik sözündən yaranıb. Korporativ mədəniyyət isə şirkətdə çalışan hər bir əməkdaşın – rəhbərdən tutmuş sonuncu işçiyə qədər formalaşdırılmış müəyyən bir sistem üzrə fəaliyyəti başa düşülür. Başqa sözlə desək, korporativ mədəniyyət şirkət əməkdaşlarının konkret mövzulara göstərdikləri reaksiyadan ibarətdir. Bu fikirlərlə teztez rastlaşmışıq ki, filan şirkətdə qaydalar bu cürdür və yaxud filan iş yerində işçilər daim bu imkanlardan istifadə edir və sair. Ancaq biz bu qaydalardan yox, onları toplu halda təqdim etməyi bacaran korporativ mədəniyyətdən bəhs edəcəyik. Məsələn, qlobal şirkətlər haqqında məlumatı olan hər kəs bilir ki, "Google" kimi böyük bir şirkətdə vəzifə daşıyanlar da daxil olmaqla, mühasibatlıq xaric, heç bir əməkdaşın kabineti yoxdur. Bu, şirkətin Moskva ofisində də belədir, London ofisində də. Yaxud IKEA kimi dünyaca məşhur mebel brendi həm də ilk kataloqların yaradıcısıdır. Ancaq qəribəsi bilirsiniz nədir? IKEA heç vaxt müştərilərindən kataloqla sifariş qəbul etmir, mağazaya mütləq şəkildə getməlisən və yeganə mebel şirkətidir ki, yol xərci və quraşdırma xərclərini də boynuna götürmür. Çünki bu, müştərilər üçün çox baha başa gəlir, təxminən, aldığı malın 15-20 faizi qədərində. Lakin IKEA-nı fərqli edən bilirsiniz nədir? Yeganə mebel istehsalçısıdır ki, mükəmməl qablaşdırma və sadə yığılma strategiyası sayəsində satdığı məhsulları minik avtomobilləri ilə də daşımaq mümkündür. Dünyada ilk dəfə IKEA satış mağazalarında uşaqlara oynamaq üçün yer ayırıb (indi bunu əksər ticarət mərkəzlərində edirlər), hansı ki, mebel seçimi üçün gələnlər nəinki uşaqlarından nigaran qalırlar, hətta rahat seçim imkanı da əldə edirlər. Yəni məşhur brend satış prosesini əyləncəyə çevirməklə müştərilərinə, necə deyərlər, "IKEA ləzzətini" çox gözəl şəkildə çatdırmağı bacarır. Və yaxud Almaniyanın məşhur "BMW" şirkətinin nümayəndələri avtomobil sərgilərində özlərini digər istehsalçılardan daha fərqli aparırlar. Sanki bu brend istehlakçılarına yeni dəb, komfort, gözəllik deyil, güc, qürur, özünəgüvən satmağı planlaşdırır. Bu misalların sayını yenə də artırmaq olar, ancaq demək istədiyimiz odur ki, bütün bu sadaladıqlarımız şirkətlərdə yaradılmış korporativ mədəniyyət nümunələridir. Bəs korporativ mədəniyyət şirkətlərin fəaliyyətlərində hansı rolu oynayır?

Aydındır ki, korporativ mədəniyyət şirkət əməkdaşları arasında bölünən dəyər, simvol, davranış forması sistemidir. İnkişaf etmək istəyən hər bir şirkət və təşkilat öz korporativ mədəniyyətini formalaşdırır. Çünki şirkət məhz korporativ mədəniyyət sayəsində öz simasını yaradır, müştəri və əməkdaşlar üçün tanınan olur. Məhz korporativ mədəniyyət şirkətin məqsəd və dəyərlərini əks etdirir, əməkdaşları bu mədəniyyəti qorumağa, inkişaf etdirməyə dəvət edir. Buna görə də belə mədəniyyət sistemi olan yerdə şirkət əməkdaşları öz hüquq və öhdəliklərini dəqiq bilir, məhsuldar fəaliyyət göstərir, bir-birini dəstəkləyir, rəhbərlərinə, şirkət adətənənələrinə, dəyərlərinə, ideallara hörmətlə yanaşırlar. Bu zaman əməkdaşlar fəaliyyət göstərdikləri iş yerlərini özlərinin ikinci evləri hesab edirlər. Təbii ki, bütün bunlar da daim böyüməyə, ölkəsinə, xalqına daha çox xeyir verməyə meyilli olan şirkətlərimiz üçün çox vacibdir. Bəs korporativ mədəniyyətin olmadığı şirkətlərdə nə baş verir?

Hər şeydən əvvəl, zəif korporativ mədəniyyətə sahib şirkətlər qeyri-effektiv fəaliyyət göstərir, özünə, cəmiyyətə, iqtisadiyyata maddi ziyan vurur, istehlakçılarını isə narazı salır. Əgər hər hansı bir təşkilat və ya şirkət korporativ xasiyyətə malik olmursa, o zaman ora gələn hər bir işçi də öz xasiyyətini ortaya qoyur. Yəni belə vəziyyətdə şirkətlərin deyil, şəxslərin, fərdlərin mədəniyyəti üzə çıxır. Belə şirkətlərdə ümumi dəyər, strategiya olmadığından, hər kəs çəkici eyni hədəfə vurmur. Bu halda isə işçi-işçi və işçi-rəhbər arasında daim anlaşılmazlıqlar olur, narazılıqlar baş alıb gedir və sair. Nəticədə, təşkilatın həm daxilində, həm də digər qurumlarla əlaqəsində müəyyən məsamələr yaranır. Buna görə də çox zaman dünyanın məşhur şirkətləri müəyyən "xasiyyətə" malik olurlar. Məsələn, "Coca-cola xasiyyəti", "Mercedes-Benz xüsusiyyəti" və sair.

Sevindirici haldır ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda fəaliyyət göstərən bəzi şirkətlərdə yerli sahibkarlarımız artıq korporativ mədəniyyətin formalaşdırılmasının vacibliyini yaxşı başa düşürlər. Onların sayı çox olmasa da var. Məsələn, muxtar respublikamızda fəaliyyət göstərən çoxprofilli "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı muxtar diyarımızın iqtisadi inkişafına öz layiqli töhfəsini verməyə çalışan böyük sahibkarlıq subyektlərindəndir. Muxtar respublikada bir çox ilklərə imza atan "Cahan" şirkəti bu gün özünün konseptual strategiyası ilə, həm də fəaliyyətində daim müxtəlif yenilikləri tətbiq edən sahibkarlıq subyektidir. Bu da şirkətdə indiyədək formalaşdırılmış korporativ dəyərlərdən qaynaqlanır. Məsələn, şirkətin yüzlərlə işçisinin çalışdığı istehsal sahələrində nahar yeməyi "Özünə xidmət et!" prinsipi ilə aparılır. Bu prinsip adi işçidən tutmuş holdinqin rəhbərindək hər kəsə aiddir. Təsadüfi deyil ki, şirkət rəhbərinin də müəyyən hallarda bu prinsipdən istifadə edərək işçilərlə birgə nahar etməsi burada hər kəsə bəllidir. Və yaxud yeni əməkdaşın işə alınması ilə bağlı şirkətdə müəyyən mənada bəzi qaydalar var. Məsələn, bu quruma iş üçün müraciət edənlərin (söhbət müəyyən bilik və bacarıq tələb edən işlərdən gedir) nə qədər müddətə işləmək istədiyi, marketinq biliklərinin hansı səviyyədə olması, şirkətin bazarda hansı mövqedə dayanması, yeni əməkdaşın özünün işlə bağlı planları və sair haqqında fikirləri öyrənilir. Çünki "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı öz fəaliyyətində insan resurslarına ciddi fikir verir, işə qəbul etdiyi əməkdaşı şirkətin gələcəyinə yatırdığı investisiya kimi qəbul edir. Doğrudur, işə alınan yeni əməkdaş, bəlkə də, bu qaydaların fərqinə varmır, ancaq zaman keçdikcə dərk edir ki, bu şirkətdə, sadə dillə desək, işə girmək asan, işdən çıxmaq çətindir. Ən əsası isə hər hansı bir əməkdaşın qarşılaşdığı çətinlik (xəstəlik, ailə üzvləri arasında ölüm və sair) şirkətin problemi kimi qəbul edilir. Məhz bu cür qurumlarda işçilər hər zaman təşəbbüskar olur, yeniliklərlə bağlı təkliflər verir, bütün bilik və bacarığını işə sərf etməyə çalışır. Elə korporativ mədəniyyət dediyimiz sistem də belə formalaşır. Yuxarıda sadaladığımız nümunələr şirkətin indiyədək yaratdığı dəyərlərin çox az hissəsidir, eyni zamanda dəyişməz təməl prinsipləridir.

Düşünürük ki, təmsil edildiyi sektordan asılı olmayaraq, bütün sahibkarlıq subyektlərində düzgün işləyən korporativ dəyərlər sistemi olmalıdır. Çünki bu dəyərləri formalaşdırmadan böyük hədəflərə çatmaq, hərtərəfli inkişaf etmək mümkün deyil. Dünya təcrübəsi də göstərir ki, yüksək korporativ dəyərlərə malik şirkətlər rəqabətədavamlılıqda hər zaman ön yerdə olurlar. Eyni zamanda korporativ mədəniyyət yalnız qurum daxilində deyil, müəssisənin digər tərəflərlə əməkdaşlığında da mühüm rol oynayır.

✍ **Səbuhi HƏSƏNOV**

## Tədbir keçirilib

*Culfa rayonunun Milax kəndində arıçılıq təsərrüfatlarının sahibkarları üçün müşavirə keçirilib. Tədbirdə payız mövsümündə arıxanaların qışlamaya hazırlanmasının əhəmiyyətindən söhbət açılıb.*

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev bildirib ki, arıçılıq təsərrüfatı cəhətdən gəlirli, qida və müalicəvi baxımdan xeyirli, ekoloji mühitin yaxşılaşdırılması istiqamətində ən faydalı təsərrüfat sahəsidir. Arıçılıqda məhsuldarlığın artırılmasında vacib şərtlərdən biri arı ailələrinin payızda qışlamaya hazırlanması işini düzgün təşkil etməkdir. Qışlama dövründə arı ailələrini soyuqdan qorumaq üçün pətəkləri qışlama binalarına yığmaq lazımdır. Bununla belə qışlama binalarının çox isti olması da yolverilməzdir. Arıçılıqla məşğul olan sahibkarlar tövsiyə olunan tədbirləri vaxtında və düzgün həyata keçirsələr, arı ailələri qışlamadan sağlam çıxar, onların sayı artırılar, bol məhsul üçün əsaslı zəmin yaranar.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin baş məsləhətçisi Hüseyn Məmmədov payız mövsümündə arıxanalarda aparılması zəruri olan tədbirlərdən danışıb.

Sonra mövzu ətrafında çıxışlar olub, ailə təsərrüfatçılarını maraqlandıran suallar cavablandırılıb.

**Alim AĞAYEV**

*"Ailə təsərrüfatları ili" – 2019*

# Evə düşən torpaq işığı...



Şahzadə Vəliyevi Kəngərli rayonunda torpağa, zəhmətə bağlı bir ailə təsərrüfatı başçısı kimi tanıyırlar. Qərbi Azərbaycandan – doğma dədə-baba torpağından qədim Naxçıvana pənah gətirən Şahzadə də başqaları kimi taleyin bu hökmü ilə razılaşıb, lakin bəziləri kimi ucuz qazanc dalınca getməyib. Məskunlaşdığı Çalxanqala kəndində torpağa üz tutub, bu qiymətli sərvətin səxavətinə inanıb. Bu gün qazandıqları üçün torpağa, zəhmətə minnətdarlığını dilə gətirməkdən yorulmur...

Ötənilki "Ailə təsərrüfatı məhsulları" festivalında tanış olduğum Şahzadə ilə bu yaxınlarda keçiriləcək festival ərəfəsində, Çalxanqaladakı ailə təsərrüfatında həmsöhbət oldum. Onu da bildirim ki, Şahzadə müxtəlif təsərrüfat sahələri ilə məşğuldur və bu barədə bir qədər sonra ətraflı məlumat verəcəyəm.

Hələlik isə özünü dinləyək: – Hələ Qərbi Azərbaycanda yaşayarkən Belarusun Qomel şəhərindəki Politexnik Texnikumunun Meşə təsərrüfatında texnik-texnoloq ixtisasını bitirdim. Böyük arzularla yaşayırdım. Bu arzularıma çatmasam da, bugünkü yaşayışımdan narazılıq etməyim naşükürlük olar. Sözlərimi səmimi qəbul edin. Çalxanqalada bir daha torpağın gücünə inandım. Bu günümü bu torpaqda tapdım.

O, buraya köçdükdən sonra dövlətimizin hərtərəfli qayğısını görüb: torpaq sahəsi ilə təmin olunub, ailəsi üçün fərdi ev tikdirib, tezliklə təşkilatçılıq bacarığını görüb, onu Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini təyin ediblər. Ancaq bu məsul vəzifə onu torpaqdan ayıra bilməyib. Bu gün də öz vəzifəsini yerinə yetirməklə bərabər, həm də ona böyük hörmət gətirən torpaqla təmasdadır. Bu nemətin dilini yaxşı bilir. Bilir ki, torpaq ona baş əyənlərin zəhmətinin əvəzini artıqlaması ilə verir. Yadıma gözəl şairimiz Xanəli Kərimlinin misraları düşür:

*Min il yağış yağa, Günəş nur saça,*
*Torpağa can verən alın təridir.*
*Nemətlər neməti müqəddəs çörək*
*Qabarlı əllərin şah əsəridir.*

Düşüncələrdən Şahzadənin sözləri məni ayırır:

– Əkinçilik üçün Çalxanqalada geniş imkanlar var. Kəndin təsərrüfat suyu yerində, torpaqlarının məhsuldarlığına söz ola bilməz. Qalır ki, qollarını çırmalayıb işə girişəsən, zəhmətə qatlaşasan. 1,4 hektar pay torpaq sahəm var. Hər il 3-4 hektar da icarəyə götürürəm. Cari ildə 3 hektar sahədən buğda, 1 hektar sahədən yüksək məhsuldarlıqla arpa tədarük etmişəm. Gələn ilin məhsulu üçün toxum və ailəmin tələbatı qədərincə ərzaq ayırdıqdan sonra yerdə qalanını satmışam.

Şahzadə deyir ki, bu gün sahibkarlıqla məşğul olmaq üçün muxtar respublikada hər cür imkan yaradılıb. Texnika və toxumla təchizat, kredit, istehsal olunan məhsulun satışının təşkili, soyuducu anbar – bütün bunların hamısı torpaq mülkiyyətçiləri üçündür. Elə təsərrüfat adamları var ki, artıq özü üçün toxum tədarük edir, kənd təsərrüfatı texnikaları alır, istehsal etdiyi toxumun artığını satır, texnikası ilə qohum-əqrəbasına, həmkəndlilərinə kömək edir, bununla da əlavə qazanca sahib olur. Bu, neçə il əvvəl muxtar respublikada bünövrəsi qoyulan iqtisadi inkişaf siyasətinin bəhrəsidir ki, bu bəhrələr artdıqca torpağa baş əyənlərin, tər tökənlərin də sayı çoxalır, nəticədə, daxili bazarda yerli məhsulun çəkisi artır. Deməli, həm torpaq mülkiyyətçisi qazanır, həm istehlakçı, nəticə etibarilə, həm də dövlətimiz.

Şahzadənin dövlətdən kredit götürüb-götürmədiyini soruşuram. Üzünə təbəssüm qonur:

– Bəlkə də, inanmayacaqsınız, İqtisadiyyat Nazirliyindən belə təklif alsam da, götürmədim. Necə deyərlər, özüm-özümü maliyyələşdirə bilirəm və bunun da təməlində dövlət qayğısı dayanıb.

Onunla bir neçə ildir ki, məhsul verən üzüm bağını gəzirik. Hamısı yerli sort üzümlər olan bağdan Şahzadə hər il xeyli gəlir götürür, məhsuldan müxtəlif məqsədlər üçün istifadə edir, yarmarkalara çıxarır. 4 sort ərazisi olan üzüm bağını genişləndirmək qarşıdakı planlardan biridir.

Həmsöhbətimin həm də sahəsi 3 sot olan meyvə bağı var. Burada muxtar respublika üçün xarakterik olan hər cür meyvə ağacları əkilib.

Söhbətimizi həyətindəki ağacların altında açılmış çay süfrəsi arxasında davam etdiririk. Stola təsərrüfatda yetişdirilərək hazırlanmış müxtəlif meyvə mürəbbələri, çərəzlər gəlir. Hərəsinin öz dadı, öz tamı. Gözüm sapsarı rəngə çalan, ətri ətrafa yayılan bala sataşır. Ev sahibi dilə gəlir:

– 40-a yaxın arı ailəsi saxlayıram. Çalxanqalanın gül-çiçəyi burada arı saxlamaq üçün çox əlverişlidir. Bu gün, demək olar ki, kənddə hamı bu sahə ilə məşğul olur. Heç olmazsa öz ailəsinin tələbatı üçün...

Elə süfrə başında onu da öyrənirəm ki, Şahzadə Vəliyevin ailəsi quş, ət, ət və süd məhsulları üçün dükan-bazara üz tutmur, 100-dən artıq toyuq-cücəsi, 10-a yaxın iribuynuzlu heyvanı var. Hər həftə belə məhsullarla Naxçıvan şəhərində keçirilən yarmarkalarda özünə xeyli alıcı tapıb...

3 nəfərlik kiçik bir ailə təsərrüfatından aldığım təəssüratlar bunlar oldu. Onu da deyim ki, yaxın günlərdə keçiriləcək "Ailə təsərrüfatı məhsulları" festivalına hazırlaşan Şahzadə Vəliyev bu festivala bir neçə adda məhsul çıxaracaq. Ailəsinin gəlirini artıracaq, yaşayış səviyyəsini daha da yüksəldəcək – dövlətimizin qayğısı, çəkdiyi zəhmət və ən qiymətli sərvət olan torpaq hesabına:

*Qapını açsan da Günəşə tay-tay*
*Evini qızdırmaz onun işığı.*
*Bir evdə nə xeyir-bərəkət olar*
*Düşməsə o evə torpaq işığı!*

✍ **Muxtar MƏMMƏDOV**

Naxçıvan Muxtar Respublikası-95

# İşıqlı gələcəyə aparan inamlı addımlar

*Türk dünyasının məşhur alimi, elmdə Aristoteldən sonra "İkinci müəllim" fəxri adını qazanmış Əbu Turxanın müdrik bir kəlamı var: "Biz gələcəyə çatanda, məlum olur ki, onun mənzərəsi öncədən çəkilibmiş". Qürur hissi ilə deyə bilərik ki, görkəmli filosofun bu aforizmi bu gün məhz Azərbaycan gəncliyinin reallığıdır.*

Müstəqil Azərbaycanda təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətini bu gün dövlət başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Ölkə rəhbəri tərəfindən müvafiq dövlət proqramlarının qəbul edilməsində əsas məqsəd ölkəmizdə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, onların cəmiyyətin bütün sahələrində fəal iştirakına şərait yaratmaq, yaradıcı və innovativ potensiallarının üzə çıxarılmasını dəstəkləmək, təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaqdır. 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan olunması, Azərbaycan gənclərinin forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirib.



Bu günün reallığı onu göstərir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası blokada divarlarını böyük məharətlə yararaq ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrdən heç vaxt kənarda qalmayıb. Həyata keçirilən bütün məqsədyönlü addımlar nəticəsində qədim diyarımızda bilikli, elmli, savadlı və yüksək düşüncəyə malik intellektli gənc nəsil yetişir. Bu isə onu göstərir ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti muxtar respublikamızda uğurla reallaşdırılır.

Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır.

Günümüzdə muxtar respublika gəncləri ilə bağlı görülən əhəmiyyətli işlərdən biri də onlarda mütaliə mədəniyyətinin artırılmasıdır. Dünya miqyasında araşdırmalar göstərir ki, kitab oxumaq insan üçün olduqca faydalıdır. Dahi filosof Sokrat deyib: "Danış, səni görüm". Gözəl danışmaq, düşünmə qabiliyyətini, yaddaş və məntiqi inkişaf etdirmək, fikirlərini yaxşı şəkildə ifadə etmək üçün isə, əlbəttə ki, mütaliə şərtdir. Naxçıvan Muxtar Respublika Kitabxanasının, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Naxçıvan Dövlət Universitetinin və Gənclər Mərkəzinin elektron kitabxanalarının maddi-texniki bazasının və kitab fondunun gücləndirilməsi bu sahədə görülən işlərin məntiqi davamıdır. Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam böyük tarixi, siyasi, elmi və mədəni əhəmiyyətə malik olmaqla yanaşı, cəmiyyətin, gənc nəslin inkişafı istiqamətinin müəyyən edilməsinə də böyük töhfə verib.

Həmçinin Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Gənclər Fondunun yaradılması və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam gənclərin bütün sahələrdə inkişafına hesablanmış məqsədyönlü siyasətin tərkib hissəsidir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin fəaliyyəti isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından müstəsna rola malikdir.

Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada sağlam, intellektual, yüksək dünyagörüşlü gənc nəslin yetişdirilməsi nə qədər əhəmiyyətlidirsə, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması da bir o qədər diqqətdə saxlanılır. 2019-cu il iyun ayının 12-də Naxçıvan şəhərində yeni "Gənclər Yaşayış Kompleksi"nin təməlatma tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu məsələni bir daha diqqət mərkəzinə çəkərək deyib: ***"Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimiz sabitlik şəraitində yaşayır, hərtərəfli təhsil alırlar. Muxtar respublikada da gənclər qayğı ilə əhatə olunub. Görülən işlərin davamı olaraq bu gün Naxçıvan şəhərində üçüncü gənclər şəhərciyi yaşayış kompleksinin təməli qoyulur. Gənclər üçün yeni yaşayış komplekslərinin tikilməsi həm onların mənzil problemlərinin həllinə, həm də ailələrin uzunömürlü olmasına xidmət edir".***

Naxçıvan Muxtar Respublikası dünyanın çox az məkanlarındandır ki, gənclərə dövlət səviyyəsində bu cür mütərəqqi yanaşılır. Bunun nəticəsi olaraq muxtar respublikamızda gənclərlə bağlı beynəlxalq forumların keçirilməsi, dünyanın müxtəlif ölkələrindən olan gənclərin iştirakı ilə müzakirə və fikir mübadilələrinin aparılması, bir sözlə, həyata keçirilən düzgün siyasət bu gün Naxçıvanı beynəlxalq səviyyədə gənclərin əməkdaşlıq mərkəzinə çevirib. Belə ki, iyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşündə bu məsələni bir daha xüsusi vuğulayaraq deyib: ***"Naxçıvanda bu ənənə formalaşıb və Naxçıvan 2003-cü ildən gənclərlə bağlı beynəlxalq tədbirlərə ev sahibliyi edir. İlk böyük tədbir 18-23 yaş gənclər arasında keçirilən şahmat üzrə dünya çempionatı olmuşdur. Bundan sonra ənənəvi olaraq hər il 1-10 may tarixlərində Naxçıvanda gənclər arasında beynəlxalq şahmat festivalı keçirilir, dünyanın müxtəlif ölkələrindən şahmatçılar həmin festivalda iştirak edir. Naxçıvanın ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı da böyük tədbirlər keçirilmişdir. Eyni zamanda Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi də mühüm əhəmiyyətə malik olmuşdur".***



Bu gün həm də vətənpərvər, savadlı, milli kökə bağlı olan muxtar respublika gəncləri yeni dövrün çağırışlarına cavab verən şəkildə formalaşır. Artıq gənclərimiz dünya elm-təhsil məkanına inteqrasiya edir, yeni texnologiyaları yaxından mənimsəyir, səmərəli ideya, layihə və təşəbbüslər – startaplar ətrafında birləşirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin davamı kimi, 2019-cu il aprelin 3-də "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncam imzalayıb. Bu sərəncam ali və orta ixtisas məktəblərindəki ixtisasların hamiliyə verilməsi, kadr potensialının dəstəklənməsi ilə yanaşı, həm də gənclərin istedadlarının üzə çıxarılması, ideyalarının diqqətə alınması və ilkin startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addım olub.

Bu gün muxtar respublika gənclərinin bilik və bacarıqlarına, həmçinin ixtisaslarına uyğun olaraq işlə təmin edilmələri diqqət mərkəzində saxlanılan prioritet məsələlərdəndir. Gənc kadrların işlə təminatı üçün muxtar respublikada dövlət qulluğuna qəbul imtahanları, eləcə də mütəmadi olaraq əmək yarmarkaları keçirilir.

Muxtar respublikamızda bir çox istiqamətlərdə festivalların keçirilməsi də artıq ənənə halını alıb. Şərqin Günəşi Naxçıvanda mütəmadi olaraq belə tədbirlərin təşkilini nəzərə alıb bu qədim diyarı "festivallar şəhəri" adlandıranlar, heç də yanılmırlar. Həmin festivalların bir məqsədi də gənclərin istedadını, peşə bacarıqlarını üzə çıxarmaqdır. Muxtar respublikamızda "Yaradıcı gənclər festivalı"nın təşkil edilməsi də gənclərə göstərilən diqqətin yalnız sözdə deyil, əməldə olduğundan xəbər verir. Festival çərçivəsində gənclər tərəfindən hazırlanmış rəsm əsərləri, əl işləri, fotoşəkillər sərgilənir, müxtəlif musiqi nömrələri səsləndirilir, fərqli tamaşalar nümayiş olunur. Bu tədbirlərdə fiziki imkanları məhdud gənclər də qayğıdan kənarda qalmır, onların da əl işləri və rəsm əsərləri nümayiş etdirilir.

Bu gün gənclərin mənəvi əxlaqında, təlim-tərbiyəsində, eyni zamanda onların fiziki inkişafında və gələcəyə hazırlanmasında idman xüsusi çəkiyə sahibdir. Əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu idman siyasətinin davamı olaraq müasir idman infrastrukturu formalaşdırılıb, idman hərəkatı genişlənib, muxtar diyarımız müxtəlif idman yarışlarının keçirildiyi beynəlxalq mərkəzə çevrilib. Hazırda Naxçıvanda 2 Olimpiya İdman Kompleksi, 2 Üzgüçülük, Şahmat, Atıcılıq mərkəzləri, rayon mərkəzlərində Şahmat, Uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini-futbol meydançaları, tam orta məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və 821 sadətipli idman avadanlıqları mövcuddur.

Bütün bunlar bir daha sübut edir ki, muxtar respublikamızda dövlət gənclər siyasəti uğurla aparılır və fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Gənclər də bu şəraitdən səmərəli istifadə edərək ulu öndər Heydər Əliyev yoluna sədaqət və ehtiramlarını öz fəaliyyətlərilə sübut edirlər. Ali Məclis Sədrinin dediyi kimi: ***"…Biz bu gün yetişən gəncliyə böyük ümidlə baxırıq. İnanırıq ki, muxtar respublika gəncləri bundan sonra da öz fəaliyyətlərini ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yola sədaqət ruhunda quracaqlar. Bu yol – gəncliyin özünü təsdiq və özünü doğrultmaq yoludur".***

***P.S.*** *Bu yazını qələmə almağımda orta məktəb müəllimimlə aramızda keçən dialoqun böyük təsiri oldu:*

*– Sən çox şanslısan...*

*– Nə üçün, müəllim?*

*– Şanslısan, gənclər üçün, sözün əsl mənasında, bütün imkanların yaradıldığı muxtar respublikada yaşayırsan... Hələ bu cür gənc yaşında dövlətin sənə yaratdığı imkanları dəyərləndirməyi bacarırsan. İndi sənin kimi gənclər müxtəlif dövlət orqanlarında, sadəcə, öz bilik və bacarıqları ilə işlə təmin olunurlar. Bizim zamanımızda çətin idi, çox çətin...*

*Dövlət qulluğu imtahanlarında uğur qazanaraq işə qəbul olunan gənc əməkdaş kimi də əminliklə deyə bilərəm ki, bu yazıda qələmə aldıqlarım Naxçıvan Muxtar Respublikasının bugünkü reallıqlarıdır.*

**Arif BAYRAMOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı***

*Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.*

# Görkəmli bəstəkarla görüş





*Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Xalq artisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanovla görüş keçirilib.*

İncəsənət fakültəsinin dekanı, dosent Günay Məmmədova qeyd edib ki, Abbasqulu ağa Bakıxanov nəslinin layiqli davamçısı olan, 1930-cu ildə Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açan Tofiq Bakıxanovun yaradıcılığı çoxşaxəli və məhsuldardır. Böyük sənətkar bir çox səhnə əsərlərinə musiqi yazıb, baletlər, simfonik əsərlər, çox sayda kamera-instrumental və kamera-vokal əsərləri, mahnılar, romanslar bəstələyib.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, universitetin Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının baş müəllimi Yaşar Xəlilov vurğulayıb ki, Azərbaycan musiqi xəzinəsini zənginləşdirən sənətkarın əsərləri bu gün dünyanın 50-dən çox ölkəsində səslənir. 1958-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü olan Tofiq Bakıxanov musiqi sahəsindəki əməyinə görə yüksək mükafatlara layiq görülüb.

Görkəmli bəstəkar Tofiq Bakıxanov çıxışında minnətdarlıq hissi ilə bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov onun Naxçıvan mövzusundakı əsərlərini yüksək dəyərləndirir. Çıxışda Naxçıvanda musiqi mədəniyyətinin və təhsilinin inkişafına diqqət və qayğı göstərildiyi xüsusilə vurğulanıb.

Sonra bəstəkar tələbələrin suallarını cavablandırıb. Azərbaycanın musiqi tarixində özünəməxsus yer tutan görkəmli bəstəkarlarla bağlı xatirələrini bölüşüb.

**Səadət ƏLİYEVA**

# Dahi şair-dramaturqa həsr olunan tədbir keçirilib

Dünən Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində görkəmli ədibin anadan olmasının 137-ci ildönümü və "Hüseyn Cavid Poeziya Günü" münasibətilə tədbir keçirilib.



Tədbir iştirakçıları əvvəlcə Hüseyn Cavid məqbərəsini ziyarət ediblər.

Muzeydə davam edən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, Hüseyn Cavid yaradıcılığının, sözün əsl mənasında, xalqımıza qaytarılmasında və təbliğində ümummilli liderimiz Heydər Əliyevin rolu misilsizdir. Böyük sənətkara əsl bəraəti dahi rəhbər qazandırıb. Məhz bu böyük insanın qayğısı və diqqəti ilə Hüseyn Cavidin 100 illik yubileyi Azərbaycanda təntənəli şəkildə qeyd edilib, dahi şairin nəşinin qalıqları 1982-ci ildə Azərbaycana gətirilərək doğulduğu Naxçıvanda torpağa tapşırılıb. Ulu öndərin şəxsi təşəbbüsü və himayəsi ilə ədibin məzarı üzərində 1996-cı ildə məqbərə ucaldılıb, Naxçıvanda və Bakıda Hüseyn Cavidin ev-muzeyləri açılıb. Sənətkarın yubileyləri təntənəli şəkildə qeyd olunur.

Diqqətə çatdırılıb ki, doğma diyarımızda da Cavid irsinin yaşadılması, öyrənilməsi və təbliğ olunması xüsusi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ədibin yubileyləri ilə bağlı imzaladığı sərəncamlar və təsdiq etdiyi Tədbirlər Planına əsasən qədim diyarımızda böyük sənətkarın yubiley tədbirləri yüksək səviyyədə təşkil olunub, elmi konfranslar və simpoziumlar keçirilib, ədibin əsərləri tamaşaya hazırlanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na Hüseyn Cavidin "Azər" poemasının daxil edilməsi isə böyük şairin zəngin irsinin gənc nəslə çatdırılması sahəsində atılan mühüm addım kimi dəyərləndirilir. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən dahi ədibin oğlu Ərtoğrol Cavidin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlər də Cavid irsinə göstərilən qayğının bariz nümunəsidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hüseyn Həşimli, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, dosent Ramiz Qasımov çıxış ediblər.

Sonra Hüseyn Cavidin əsərləri bədii qiraət olunub, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin sazçalanlar ansamblının ifasında Ərtoğrol Cavidin "Dağlar" mahnısı dinlənilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*O, bir anlıq işindən ayrılıb pəncərənin önünə yaxınlaşdı. Təbiətinə, insanlarına aşiq olduğu diyarın mənzərəsinə baxaraq düşüncələrə daldı. Vahid müəllim ömrünün ən gözəl çağlarını burada yaşamışdı. Əldə etdiyi hər şey üçün özünü qədim diyara borclu sayır və bu borcu ödəməyə çalışırdı. İllərdən bəri gözlədiyi an gəlib çatmışdı. O, düşüncələrində burada yaşadığı hər bir anı gözdən keçirdi. Çünki görəcəyi işdə onun həyatına xoşbəxtlik qatan bütün xoş anları yaşatmaq istəyirdi...*

# Məhəbbətlə vəsf edilən hansı məkandır? – O, Naxçıvandır

Vahid müəllim artıq 3 gün idi ki, iş otağında fasiləsiz çalışırdı. Ömür-gün yoldaşı Dilbər xanım həmin günə qədər onun belə ara vermədən çalışmağını görməmişdi. Elə buna görə də bütün ailə üzvləri onun iş otağına saatlarla qapılmasından narahat idilər. Sən demə, Əliheydər həkim 3 gün öncə Vahid müəllimi görməyə gəlmiş və ona əl yazısı ilə bir neçə bəndlik şeir yazılmış vərəq vermişdi. Bundan sonra o, öz iş otağına çəkilmiş və işə başlamışdı. Vahid müəllimin bu "yoxluğuna" hövsələ edə bilməyən Dilbər xanım ehmalca qapını açıb otağa daxil oldu. O, iş masasının üstünə dağılmış vərəqlərə, otaqdakı səliqəsizliyə və masanın üzərindəki bir neçə saat öncə gətirdiyi, hələ də dolu olan çay stəkanına nəzər yetirdi. Anladı ki, Vahid müəllim illərdir, səliqə-sahmanın hökm sürdüyü iş otağında nəinki səliqəyə, hətta çay içməyə vaxt ayırmadan həvəs və şövqlə işini bitirmək istəyindədir. Dilbər xanım sakitcə dayanıb həyat yoldaşının musiqi parçalarını ifa edib not dəftərinə qeydlər aparmasını bir neçə dəqiqə seyr etdi. Daha sonra Vahid müəllim son qeydlərini apararaq dərindən nəfəs aldı və əlindəki tarı masanın üstünə qoydu. Dilbər xanıma sevincdən buludtək dolan gözləri ilə baxaraq: "Səni mənim taleyimə bəxş edən Naxçıvana bir ərməğanım olacaq, demişdim, yadındadırmı? Bax, o ərməğan bu vərəqlərin üzərindədir", – dedi...


Vahid Axundov və Dilbər Təhməzbəyova

İllərdir, hamının sevə-sevə dinlədiyi, toylarımızın, el şənliklərimizin, konsert proqramlarının bəzəyi olan "O, Naxçıvandır" mahnısı beləcə ərsəyə gəldi...

Zaman dayanmadan öz axarı ilə ötür. Hər bir istedadlı insan yaşadığı müəyyən zaman kəsiyində xoş anlarını daimi etmək istəyində olub. Buna görə də o, öz istedad və bacarığı sayəsində həmin anları rəsmlərə, daş heykəllərə, şeirlərə, romanlara, musiqilərə həkk edib. Yaradılan bu əsərlər zamanı qabaqlayaraq, illərin süzgəcindən keçərək bu günümüzə gəlib çatıb. Özündə həm də yarandığı dövrün tarixini yaşadan həmin əsərləri ərsəyə gətirən insanlar incəsənət tariximizin səhifələrində öz yerini tutaraq bu gün də dərin ehtiramla yad edilirlər. Belə sənət xadimlərindən biri də ötən əsrdə yaşayıb-yaratmış görkəmli ustad tarzən və bəstəkar Vahid Axundovdur.

"O, Naxçıvandır" mahnısının yaranma tarixini araşdırarkən məlum oldu ki, bu tarix bilavasitə bəstəkarın keçdiyi ömür yolu ilə birbaşa bağlıdır. Ona görə də bəstəkar Vahid Axundovun həyatına qısaca da olsa, nəzər salmalıyıq. Bəstəkar 1924-cü ildə Tərtər rayonunun Borsunlu kəndində dünyaya göz açıb. Buradakı maraqlı nüans odur ki, onun əsl adı Kəndli imiş. Kəndli Həmzə oğlu Axundov... Naxçıvanda yaşadığı dövrdə Vahid adını təxəllüs kimi götürür və onu hamı Vahid olaraq tanıyır. Vahid Axundov 1941-ci ildə müharibəyə yollanır. O, taleyin bu ağrı-acılı müharibə yollarının ona bəxş edəcəyi xoşbəxtliyi heç bir zaman düşünməmişdi. Odlu-alovlu müharibə illərində ağır yaralanan bəstəkar hərbi hospitalda qaldığı müddətdə Naxçıvandan müharibəyə yollanan tibb bacısı Dilbər Təhməzbəyova ilə tanış olur. Azərbaycanın müxtəlif bölgələrində dünyaya göz açan iki gəncin yolları ağır müharibə illərində kəsişir və bir daha ayrılmır. Vahid Axundovun Dilbər xanıma olan vurğunluğu onun ömür yolunun davamını Azərbaycanın qədim diyarı Naxçıvana salır.

Bəstəkar hələ sağlığında da qeyd edərmiş ki, həyatının ən xoş, gözəl, qayğılı günlərini Naxçıvanda keçirib. O, bu qədim diyara mənəvi bir sevgi, məhəbbət hissi ilə bağlı idi. Elə bu məhəbbətin nəticəsi olaraq Naxçıvanımızı və bölgələrini də tərənnüm edən mahnılar bəstələyir.


Vahid Axundov tələbəsi ilə

Vahid Axundov Naxçıvanda yaşadığı dövr ərzində burada musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərib. Bəstəkar Nazim Quliyev Vahid Axundovun həyat və yaradıcılığını əhatə edən "O, hansı məkandır" adlı monoqrafiyasında yazır: "Vahid Axundovun Naxçıvanda yaratdığı Şərq üçlüyü el şənliklərində, radio dalğalarında yeni repertuarla çıxışlar edir. Yaradılan kollektiv musiqi mədəniyyətimizə yeni nəfəs gətirir. O, musiqinin inkişafı sahəsində mühüm işlər görür, tez bir zamanda yeni kollektivlər yaradır".

Onu da qeyd etmək yerinə düşər ki, bəstəkarın beş övladından üçü peşəkar musiqiçi kimi fəaliyyət göstərib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zöhrab Axundov bəstəkarın yolunu bu gün də layiqincə davam etdirir.

Vahid Axundov Naxçıvan Tibb Məktəbini bitirərək bir müddət tibb işçisi kimi fəaliyyət göstərib. Çalışdığı ozamankı Naxçıvan şəhərindəki xəstəxanada hamının hörmətlə yanaşdığı həkim, şair-dramaturq "O, Naxçıvandır" mahnısının sözlərinin müəllifi Əliheydər Qənbərov ilə tanış olur. Yaradıcılıq əlaqələri onları daha da yaxınlaşdırır.

Daha bir maraqlı məqam isə odur ki, mahnının sözlərinin müəllifi də əslən Naxçıvandan deyil, Bakı şəhərindəndir. Buna baxmayaraq, bu iki sənətkar Naxçıvana ülvi hisslərlə bağlı idilər. Əliheydər Qənbərov 1958-ci ildə mahnının sözlərini bəstəkara təqdim edəndə o, çox sevinir. Bir neçə gün ərzində mahnını ərsəyə gətirir və Naxçıvan radiosu nəzdində fəaliyyət göstərən ansamblın tərkibində ilk dəfə özü ifa edir. 1959-cu ildə onun da xidməti ilə yaradılmış Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının repertuarına "O, Naxçıvandır" mahnısı da daxil edilir və bütün konsert proqramlarında ifa olunur. Mahnı qısa zaman kəsiyində populyarlıq qazanır.


Soldan sağa: Vahid Axundov, Şəbih Təhməzbəyov, Əliheydər Qənbərov

Prezident təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, ustad tarzən Əkrəm Məmmədli də o illəri xatırlayaraq deyir: – Mahnının bu qədər xoş, ürəyəyatan olmasının səbəbi birbaşa Vahid Axundovun mənəvi dünyası ilə bağlıdır. Bəstəkar səmimi, xoşxasiyyətli insan idi və bu gün də "O, Naxçıvandır" mahnısını dinləyərkən istər-istəməz Vahid Axundovu xatırlayırıq. Mən bu mahnını ilk dəfə bəstəkarın özünün ifasında dinləmişəm. Daha sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Hüsnü Qubadov mahnıya yeni nəfəs verdi. Mahnının Naxçıvandan da kənarda populyarlaşması isə Azərbaycan Respublikasının Xalq artisti, mərhum xanəndəmiz Abdulla Babayevin onu oxuduğu dövrə təsadüf edir. Onun ifasında "O, Naxçıvandır" mahnısı respublikamızda, eləcə də bir çox ölkələrdə qastrol səfərlərində özünəməxsus şəkildə ifa olunub və sevilib.

Azərbaycan Respublikasının Əməkdar artisti, tarzən Zeynalabdin Babayevlə söhbətimiz zamanı o dedi: – Atam Abdulla Babayevlə mərhum bəstəkar Vahid Axundov o zaman həm iş yoldaşı, həm də möhkəm dost olublar. Elə bu dostluğun nəticəsi idi ki, mənim ilk musiqi təhsilimi atam Vahid müəllimə həvalə etmişdi. "O, Naxçıvandır" mahnısı ərsəyə gəldikdən sonra bir çox xanəndələr bu mahnıya müraciət etdi. Ümumiyyətlə, hər bir xanəndə ifa etdiyi mahnıda öz daxili dünyasını dinləyiciyə çatdırır. Buna görə də ifalar həmişə bir-birindən fərqlənir. Bəstəkar Vahid Axundovun təklifi ilə atam da bu mahnını ifa etdi və çox uğurlu alındı. Abdulla Babayevin ifasını dinlədikdən sonra bəstəkar mahnının məhz bu səsdə daha gözəl alındığını qeyd etmişdi. 1974-cü ildə Naxçıvanın 50 illik yubileyi ilə əlaqədar olaraq Bakı şəhərində "Naxçıvan günləri" keçirilirdi. Atam da konsert proqramında "O, Naxçıvandır" mahnısını ifa etdi. Həmin konsertdə ümummilli liderimiz Heydər Əliyev də iştirak edirdi və səhnə arxasında musiqiçilərlə görüşü zamanı atama üzünü tutaraq söylədi: ***"Abdulla, mahnı çox qəşəngdir. Bu mahnı Naxçıvanın himnidir. Sən də bu mahnını özünəməxsus şəkildə oxuyursan".***

Ulu öndər atamın ifasında bu mahnını həmişə dinləməkdən zövq alardı. Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının tərkibində bütün qastrol səfərlərində Abdulla Babayev bu mahnını ifa edərdi. Xarici ölkələrdə səfərdə olduğumuz müddətdə orada yaşayan həmyerlilərimiz həmin mahnını o qədər bəyənirdilər ki, bizdən təkrar ifa etməyi istəyirdilər. Bu insanlar arasında mahnının təsirindən kövrələnlər də az olmayıb.

Mahnının mahir ifaçılarından olan Azərbaycan Respublikasının Əməkdar artisti Qurban Qasımovun da fikirlərini öyrənirik: – Bu mahnı "Şur" muğamı üstündə bəstələnib. Buna görə "Şur" ladında olan digər muğamlar zil səs tələb etdiyi üçün mahnının melodik çalarları üzə çıxır və gözəl səslənir. Mahnının oxunması ilk baxışdan asan görünə bilər, ancaq bəstəkar burada texnikadan öncə daxili aləmə üstünlük verdiyi üçün xanəndə mahnını öz mənəvi aləmi ilə səsləndirməli və dinləyiciyə onu yaşatmağı bacarmalıdır. Mahnı yarandığı gündən etibarən həmişə fasiləsiz olaraq Naxçıvan xanəndələrinin repertuarında başlıca sırada yer alıb. Qastrol səfərlərində bir çox ölkələrdə mənim və digər xanəndələrimizin ifasında səslənib. O zaman el şənliklərində ifası ən çox tələb olunan "O, Naxçıvandır" mahnısı idi. Bir çox xanəndələr bu mahnını daim öz repertuarında saxlayıb ifa ediblər ki, bunlardan biri də mərhum xanəndə İdris Nəbiyev idi. O, bu mahnını zildən oxuyardı və bu zaman mahnı tamamilə başqa bir təsir gücünə malik olar, hamı heyranlıqla dinləyərdi. Bu gün də yetişən hər bir xanəndə həmin mahnını ifa etməli, Naxçıvanımızı tərənnüm edən gözəl sənət nümunəsini yaşatmalıdır.

İgidlər oylağına, dahilər yetişdirən bu diyara həsr olunan "O, Naxçıvandır" mahnısı bu gün nəinki Azərbaycanda, İranda, Türkiyədə də məşhurdur. Bu mahnı onu dinləyən hər bir insanın ruhunu oxşayır, mənəvi varlığına rahatlıq gətirir və diyarımızın gözəl təbiətini gözlər önündə canlandırır. Hazırda mahnı bir çox tanınmış müğənnilər tərəfindən də ifa edilir. Tanrının sənətkara bəxş etdiyi istedad, sehrli yaradıcılıq inciləri ilə onun musiqi ərməğanına çevrilən, bu gün də öz təravətini itirməyən "O, Naxçıvandır" mahnısı xalqımızın mədəni sərvətlərindəndir. Düşünürəm ki, bu mahnı Naxçıvanın gözəlliyitək əbədi yaşadılacaqdır...

**Pərviz HACILI**

## Futbol üzrə yeni mövsümün püşkü atılıb



*Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında Naxçıvan Futbol Federasiyasının iclası keçirilib.*

Şəhər və rayon İdman idarələri rəislərinin, futbol üzrə uşaq və böyük komandaların baş məşqçilərinin iştirak etdikləri iclasın gündəliyində yeni məşqçilərin təyinatı, eyni zamanda böyüklər arasında futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatının püşkatması olub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Futbol Federasiyasının sədr müavini Sakit Rzayev yeni başlayacaq 18-ci muxtar respublika çempionatında komandalara uğurlar arzulayıblar. Qeyd olunub ki, cari çempionatın reqlamentində dəyişikliklər edilib.

Yeni qaydalar haqqında məlumat verən federasiyanın sədr müavini bildirib ki, artıq çempionat iki zona – Mərkəz və Qərb zonaları üzrə keçiriləcək. Müvafiq olaraq 3 və 4 dövrədən ibarət keçiriləcək çempionatın sonunda turnir cədvəlində 1 və 2-ci yeri tutan komandalar pley-off mərhələsinə vəsiqə qazanacaq. Burada qalib olan komanda isə muxtar respublikanı Azərbaycan Region Liqasında təmsil edəcək. İclasda, eyni zamanda oyun protokollarının ümumi mərkəzləşdirilmiş formada olacağı da diqqətə çatdırılıb.

Sonra yeni mövsümün püşkü atılıb. Əsasnaməyə uyğun olaraq Mərkəz zonada "Araz-Naxçıvan", "Culfa", "Ordubad", "Babək" və "Şahbuz", Qərb zonada isə "Naxçıvan Dövlət Universiteti" (NDU), "Şərur", "Kəngərli" və "Sədərək" komandaları mübarizə aparacaq. İlk turda aşağıdakı komandalar üz-üzə gələcək:

*"Culfa"-"Şahbuz"*
*"Ordubad"-"Babək"*
*"Kəngərli"-"Sədərək"*
*NDU-"Şərur"*

İlk turun oyunları gələn həftə keçiriləcək.

Püşkatmadan sonra uşaq futbolunda çalışacaq məşqçilərin siyahısı açıqlanıb. Belə ki, İntiqam Rəhimov, İbrahim Mirzəyev, Nicat Əsgərov Naxçıvan şəhər, Bilal Nağıyev, Rəsul Məhərrəmov Şərur rayon, Cavid Xəlilov, Rəşad Heydərov Şərur UGİM, Fuad Həsənov, Tağı Seyidov Kəngərli, Əvəz Məmmədov, Rövşən Əliyev Ordubad, Seymur Əlizadə, Pərviz Cəbiyev Culfa, Rauf Əliyev, Əvəz Zamanov Babək, Bahadur Fərzəliyev Şahbuz, Samil Hüseynov, Nadir Məmmədov Sədərək rayonlarına uşaq məşqçiləri təyin olunublar. Elmurad Səfərli isə uşaq qapıçılarla məşqçi vəzifəsini icra edəcək.

Sonda məşqçilərin fikirləri dinlənilib, müzakirələr aparılıb.

## Voleybol üzrə yoldaşlıq görüşü



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında keçirilən görüşdə "Ordubad" və "Kəngərli" komandaları üz-üzə gəlib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüş ordubadlı voleybolçuların 3:0 hesablı qələbəsi ilə başa çatıb.

Sonda idmançılar mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 732